UOT-811.11-112
Səhifə: 224-229
https://doi.org/10.59849/2663-8967.2026.2.224

Xəyal Əsgərli
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
hayalasgarli@gmail.com

İBRANİ QRAFİKALI KARAİM MƏTNLƏRİNDƏ KULİNARİYA LEKSİKASI: LEKSİK-SEMANTİK VƏ ETNOLİNQVİSTİK TƏHLİL

XÜLASƏ

Məqalədə ibrani qrafikalı karaim mətnlərində işlənən yemək və qida adları leksik-semantik və etnolinqvistik aspektlərdən araşdırılır. Kulinariya leksikasının yalnız nominativ vahidlər kimi deyil, müəyyən tarixi-mədəni mühitin dil göstəriciləri kimi öyrənilməsi onların tədqiqinə daha geniş perspektiv qazandırır. Karaim dilinin tarixi inkişafı və müxtəlif dillərlə təmasları onun leksik tərkibində, xüsusilə də maddi mədəniyyətlə bağlı söz qruplarında özünü göstərir. Bu baxımdan yemək adları karaimlərin məişəti, milli mətbəxi, təsərrüfat fəaliyyəti və mədəni əlaqələri haqqında mühüm dil materialı təqdim edir.

Tədqiqatda ibrani hərfləri ilə yazıya alınmış karaim mətnlərindən seçilmiş qida və yemək adlarının struktur-semantik xüsusiyyətləri, mənşəyi və leksik-semantik əlaqələri təhlil edilir. Eyni zamanda türk mənşəli sözlərlə yanaşı, dil əlaqələri nəticəsində karaim dilinə daxil olmuş alınma leksik vahidlərin xüsusiyyətləri müəyyənləşdirilir. Araşdırmanın nəticələri ibrani qrafikalı karaim mətnlərinin yalnız dil tarixi baxımından deyil, həm də karaimlərin maddi və mənəvi mədəni irsinin öyrənilməsi baxımından da mühüm mənbə olduğunu göstərir.

Açar sözlər: *karaim dili, İbrani qrafikası, türk dilləri, kulinariya leksikası, qida terminləri.*

Giriş: Karaim dili qıpçaq qrupu daxilində təsnif edilən türk dillərindən biri kimi, tarixi inkişaf xüsusiyyətləri, məhdud danışıq arealı və yazılı mətnlərdə mühafizə olunmuş dil elementləri ilə səciyyələnir. Dilin tarixi - coğrafi inkişaf arealı əsasən Krım yarımadası, Litva və Qaliç əraziləri ilə əlaqələndirilir. Müxtəlif dövrlərdə fərqli etnomədəni və dini mühitlərlə təmasda olması karaim dilinin fonetik, qrammatik və xüsusilə leksik sistemində çoxqatlı xüsusiyyətlərin formalaşmasına səbəb olmuşdur.

Karaim dilinin Krım, Trakay və Qaliç dialektləri arasında Krım dialekti fonetik və leksik xüsusiyyətlərinin özünəməxsusluğu, eləcə də tarixi dil elementlərinin nisbətən yaxşı qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Krım-tatar dili ilə uzunmüddətli və intensiv dil təması Krım dialektinin inkişafına müəyyən təsir göstərmiş, bununla yanaşı, dialektin qıpçaq dil xüsusiyyətlərinin mühüm hissəsini qoruyub saxlamasına şərait yaratmışdır. Bu baxımdan Krım dialekti qıpçaq dil qatının, həmçinin müxtəlif tarixi dövrlərdə baş vermiş dil əlaqələrinin izlərini araşdırmaq üçün mühüm dil materialı hesab edilə bilər.

Karaim dilinin Krım dialektinin leksik sistemi mənşə və formalaşma baxımından heterogen xarakter daşıyır. Lüğət tərkibində qıpçaq mənşəli leksik vahidlərlə yanaşı, ibrani, ərəb, fars və slavyan dillərindən keçmiş alınma sözlərə də rast gəlinir. Bu leksik təbəqələrin qarşılıqlı əlaqəsi dialektin tarixi inkişaf mərhələlərinin, dini – mədəni münasibətlərinin və müxtəlif dillərlə təmaslarının izlərini özündə əks etdirir. Xüsusilə ibrani qrafikası ilə yazıya alınmış Krım karaim mətnləri həmin leksik qatların müəyyənləşdirilməsi və tarixi-semantik xüsusiyyətlərinin araşdırılması baxımından mühüm mənbə rolunu oynayır.

Tədqiqatın əsas mənbə bazasını ibrani qrafikası ilə yazıya alınmış karaim mətnləri təşkil edir. Nümunələrin seçildiyi mənbələrdən biri də V. Radlov tərəfindən 1860-1870-ci illər arasında toplanmış dil materiallarının VII cildinə daxil edilmiş "Şimal türk boylarının xalq ədəbiyyatından nümunələr" ("Proben de Volkslitteratur der türkischen Stamme") adlı məcmuədir. Bu cilddə

ibrani qrafikası ilə yazılmış 518 səhifə və kiril əlifbası ilə yazılmış 408 səhifə mətn var. İbrani qrafikası ilə yazılmış bölmə "Krım karaimləri arasında istifadə edilən nağıllar, hekayələr, atalar sözləri, tapmacalar, yanıltmaclar və xalq mahnıları" adlanır. Bu məcmuə 2010-cu ildə Tülay Çulha tərəfindən latın əlifbasına transliterasiya edilmişdir. Digər bir kolleksiya 1808-ci ildə ibrani əlifbası ilə yazılmış və Henrix Jankovski tərəfindən professor Yuri Polkanovdan əldə edilmiş "Qatıq" kolleksiyasıdır. Oxşar hekayə və şeirləri özündə birləşdirən "Qılcı" məcmuəsi də nümunələrin seçildiyi mənbələrdən biridir. Bu kolleksiyanın 20-ci əsrin əvvəllərində Eliyahu ben Yosef Qılcı tərəfindən yazıya alındığı təxmin edilir. Bu mənbələrdə yer alan leksik vahidlər arasında kulinariya leksikası xüsusi leksik-semantik lay kimi diqqəti cəlb edir.

Kulinariya leksikası hər bir xalqa məxsus dilin milli-mədəni xüsusiyyətlərini əks etdirən sahələrdən biridir. Kulinariya ilə bağlı leksik vahidlər dilin tarixi inkişaf prosesində müxtəlif mənbələr hesabına formalaşa bilər. Milli leksik vahidlərlə yanaşı, müxtəlif xalqlarla tarixi, coğrafi və mədəni təmaslar nəticəsində yaranan alınmalar da bu sahənin tərkibində mühüm yer tutur. Bu leksikanın semantik quruluşu da kifayət qədər rəngarəngdir. Ayrı-ayrı leksik vahidlər konkret yemək və ya ərzaq adını bildirməklə yanaşı, həmin qidanın hazırlanma texnologiyası, tərkibi, dad xüsusiyyəti və istehlak forması haqqında müəyyən məlumatı özündə ehtiva edir. Bu xüsusiyyət kulinariya leksikasının yalnız nominativ deyil, həm də etnolinqvistik informasiya daşıyıcısı kimi nəzərdən keçirilməsinə əsas verir. Xüsusilə, tarixi yazılı abidələrdə və azsaylı xalqların mətnlərində qorunmuş kulinariya leksikası həmin toplumun gündəlik həyatının öyrənilməsi üçün qiymətli dil materialıdır. Bu baxımdan karaimlərə məxsus mətnlərdə rast gəlinən qida adları bu dilin leksik tərkibinin və tarixi-mədəni inkişafının öyrənilməsi baxımından əhəmiyyət daşıyır.

Karaim dilində gündəlik həyatda istifadə olunan sözlər arasında yemək və içki adları mühüm yer tutur. Bu leksik təbəqə xalqın gündəlik həyat tərzini və mədəni ənənələrini əks etdirir. Karaim dilində yemək və içki adları əsasən qədim türk mənşəli sözlərdən ibarət olsa da, tarix boyu digər dillərlə qarşılıqlı təsir nəticəsində yaranmış leksik vahidlərlə də zənginləşmişdir.

Tədqiq etdiyimiz mətnlərdə müxtəlif yemək və şirniyyat adları yer almışdır: *asa (yemək), aslama/ aşlama (qaynanmış ət), asratlıq (yemək), aşqana (mətbəx), aşlıq (taxıl), ayaqlıq/ayaqlaq (içine ət doldurulmuş xəmir yeməyi), aynalıq (Şabat üçün cümə günü bişirilən yemək), baqlaşı (lobya şorbası), baqlava, ballı baqlava, ekmek, erişte, şekerli börek, ballı loqma, qabaq dolması, yağlıca çörek, qoz sarması, qaplı pilav, zerde pilav, lavaş, keşkek, sirkeli paça, kebap, lahana dolması, cevizli börek, qaşıq böregi, peynirli pide, bastırma, yahni, yoğurt, boğaca, çığıt (pendir), şerbet, helva, şorba, umaç, tutmaç (əriştə), kömeç (dairəvi çörək növü), követi (böyük dairəvi ətli çörək), pilav, qatlama və s. "Pek aşıqtıqlarından pişirdiler yolda kömeç peklemeden ekşisin"* [1, s. 213]; *"Ağzım içi şekerlen bal doldu aman, aman."* [6, s. 126]; *"Quru laftan pilav pişmez doldır yağı qazana"* [14, s. 807].

Türk dillərində ***"aş"*** sözü qida mədəniyyətini əks etdirən ən dərin köklü sözlərdən biridir və tarix boyu həm əsas mənasını qoruyub saxlamış, həm də müxtəlif dillərdə fərqli mənalar və istifadə xüsusiyyətləri qazanmışdır. Tarixən türk mətnlərində bu söz ümumiyyətlə qida və ruzi mənasında istifadə olunurdu, lakin zaman keçdikcə müəyyən qida növlərini adlandıran mürəkkəb strukturların əsas elementinə çevrildi. Məsələn, "Divanü lüğat-it Türk" əsərində *aşlık* sözü "mətbəx, yeməkxana" mənasında istifadə olunur. M. Kaşğari yazır ki, Oğuz türkləri buğdanı *aşlık* da adlandırırdılar [12, s.114]. Tədqiq etdiyimiz mətnlərdə də aş sözünün müxtəlif mənalarda işləkliyi diqqəti çəkir. Bu mətnlərdə *aş* sözü yalnız *yemək* mənasında deyil, həm də *"aşqana"* (mətbəx), *"aşlıq"* (dən, buğda) və *"baklaşı"* (lobya şorbası) kimi sözlərin tərkibində də yer almışdır. *Aşqana* sözü mətbəx mənasında Azərbaycan dilinin Salyan dialektində də işlənir [11, s. 25]. Təhlil edilən dil faktları göstərir ki, *aş* leksemi tarixən müxtəlif söz yaradıcılığı modellərində fəal iştirak etmiş, törəmə və mürəkkəb dil vahidlərinin formalaşmasında məhsuldar komponent kimi çıxış etmişdir. Klauson da *aşlık* sözünün *"mətbəx"* və *"taxıl"* mənalarında istifadə olunduğunu yazır [5, s. 261-262]. Bu, sözün tarixi inkişafı zamanı müxtəlif coğrafi ərazilərdə dəyişən mədəni və linqvistik şəraitə uyğunlaşdığını göstərir. Xüsusilə ənənəvi kulinariya mədəniyyəti ilə əlaqəli adlarda *"aş"* elementinin qorunub saxlanması sözün məhsuldarlığını və mədəni əhəmiyyətini ortaya qoyur.

Dilin tarixi inkişafında *aş* sözü yemək mənasından uzaqlaşaraq *plov* sözünün sinonimi kimi işləklik qazanmışdır. Bu mətnlərdə *pilav* sözü həm tək halda işlənir, həm də sintaktik üsulla söz yaradıcılığında fəal şəkildə iştirak edir: zerde pilav, qaplı pilav və s.

V. Radlovun məcmuəsində yemək adlarına həsr olunmuş nəzmlə verilən nümunələr *"destan"* adı altında toplanmışdır. Bu hissədə müxtəlif yemək adları müşahidə edilir. Məsələn, *"Lahana dolmasına biber lazımdır, cevizli börek yemeye quvat lazımdır."*; *"Sarımsaq harzular qabaq dolması, xasaplar harzular qozu dolması"* [14, s. 533]. Həmin məcmuədə tapmacalar bölməsində yemək adlarına dair nümunələr də yer alır: *"Sarı suvda sandal oynar"* (qatlama) [14, s. 497].

"Qatlaması qırq qabat,
Fırına qoy da qızart
Bal yağ ilen yaqışa
Gülbe şeker ne hacet"
(Baqlava) [14, s. 495].

Mətnlərdə həm morfoloji, həm də sintaktik yolla yaranan yemək adlarına rast gəlinir. Morfoloji üsulla yaranmış sözlər daha çox -ma və -lıq şəkilçilərinin köməyi ilə formalaşır: *aslama, dolma, sarma, qatlama, bastırma, asratlıq, ayaqlıq, aynalıq, aşlıq* və s. Aslama asmaq, dolma dolmaq, sarma sarımaq, qatlama qatlamaq feillərindən yaranmışdır və onların hazırlanma üsulları ilə bağlıdır. Sintaktik yolla yaranan yemək adlarına isə *baqlaşı, ballı baqlava, lahana dolması, cevizli börek, sirkeli paça, yağlıca çörek* kimi nümunələri göstərə bilərik.

Krım dialekti nümunələrində yemək adları arasında bəzi sözlər Azərbaycan dilində də işlənir. Məsələn, *"tutmaç"* sözü karaim dilində əriştə mənasında işlənir [2, s. 427]. Eyni söz Azərbaycan dilinin bəzi dialektlərində (Ağcabədi, Göyçay, İmişli, Oğuz, Quba, Şamaxı, Ucar) əriştəyə bənzər bir yemək adı olaraq hələ də işləkdir [3, s.510]. *–mac/-mec* şəkilçisi həm qədim türkcədə, həm də müasir türk dillərində işlənən yemək adlarının yaranmasında iştirak etmişdir. A. Ercilasun bu şəkilçinin mənşəyi ilə bağlı bildirir ki, feildən isim yaradan *-ma/ -me* şəkilçisi ilə *aş* sözünün birləşməsi nəticəsində yaranmış və ş- ç keçidi ilə -mac/ -mec formasında sabitləşmişdir [8, s. 83]. Bu şəkilçi ilə yaranan yemək adlarına nümunə olaraq "Kitabi-Dədə Qorqud" dastanında "bazlamac" sözünü göstərmək olar: *"Şabadança yirinden örü turur, elin yüzün yumadın tokuz bazlammaç ilen bir külek yoğurd gözler, toyunca tıka basa yir, elin bögrüne urur aydur"* [9, s. 76]. Mətnlərdə *tutmaç* sözünün sinonimi olaraq *erişte* sözü də işlənir: *"Erişteler uzun olur yiyemem"* [14, s.533].

Krım dialektində işlənən "kömeç" [4, s. 338] sözü DLT-də külə basdırılaraq bişirilən çörək növü kimi adlanır [12, s. 360]. Mətnlərdə təsadüf edilən *umac* ovmaq feili ilə -mac şəkilçisinin birgə iştirakı ilə yaranmış, səs düşümü nəticəsində *umaç* şəklində sabitləşmişdir: *"Aruv unnıñ umacın ovmaz mısın"* [6, s. 54]. Bu sözə türkmən dilində də rast gəlinir. Azərbaycan dilində bu yolla yaranan yemək adlarına - *döyməc, umac, tutmac, doğramac* kimi sözləri nümunə göstərə bilərik.

Türk dillərində ş-ç keçidi ilə formalaşan yemək adlarından biri də şorba-çorba sözüdür. Mətnlərdə bu söz şorba şəklində işlənir: *"Tüy şorba pişirdim tüyüldü canay"* [1, s. 128]. Tüy şorba "darı şorbası" deməkdir. Fars mənşəli bu söz cüzi fonetik fərqlərlə türk dillərinin bir çoxunda işlənir: Türkiyə türkcəsində *çorba*, başqırd dilində *hurpa*, qazax dilində *sorpa*, qırğız dilində *şorpo*, tatar dilində *şulpa*, türkmən dilində *çorba* [7, s. 138-139].

Mətnlərdə yer alan "yahni" sözü də qədim yemək adlarından biri kimi türk dillərində işlənmişdir: *"Seksen sahan yahni geldi beri, yetmiş tabaq pilav aldılar beri"* [14, s. 534]. "Kitabi-Dədə Qorqud" dastanında bu söz bir neçə yerdə işlənmişdir: *"Qara tonuz ətindən yəxni yedirdin doyamadım"* [12, s.136]. Azərbaycan dilinin dialektlərində bu sözdən yaranan "yaxnıkeş" sözü *qab* mənasında işlənir [3, s.537].

Tədqiq etdiyimiz mətnlərdə az sayda içki adlarına da rast gəlirik: *Amberiye (likör), araha (araq), ayran, raqı, boza, şerbet, qahve* və s. *"Babası gider ballı boza içmeye"* [1, s. 134];*"Raqı içkiler ayağı, boza beyazdır bayağı"* [6, s. 139]; Tədqiqatçıların fikrinə görə *ayran* sözü ayırmaq feili ilə -an feili sifət şəkilçisinin birləşməsi ilə yaranıb, tarixi prosesdə -ı saiti düşərək "ayran"

sözü əmələ gəlmişdir [11, s. 19]. Türk dillərinin bir çoxunda kiçik fonetik fərqlə işlənən araha (araq) sözü ərəb mənşəlidir .

Mətnlərdə yemək adlarından düzələn peşə bildirən sözlərə də rast gəlinir. Bu qrupa daxil olan sözlər –çı [4] şəkilçisinin iştirakı ilə formalaşmışdır: ekmekçi, kebapçı, aşçı, bozacı, çorbaçı və s. *"Bozacı beni pek işkar sandı"* [1, s. 125]; *"Kebapçı oldum ciger döndü piyrana, aşçı oldım bir kelep düştü qazana"* [14, s. 530].

Mətnlərdə rast gəldiyimiz yemək və içki adlarını mənşəyi məsələsi də maraq doğurur. Burada həm türkcə, həm də ərəb və fars dillərinə məxsus adlara rast gəlirik.Türk dilinə xas sözlər say etibarilə daha çoxdur: *aslama, ayaqlıq, dolma, yoğurt, ekmek, çörek, bastırma, yahni, umaç, sarma, tutmaç, erişte, kömeç, qatlama, yoğurt, paça, cığıt, börek, baqlava, ayran.* "Cığıt" sözünə müasir qıpçaq dilləri arasında yalnız karaim türkcəsində rast gəlinir, *süzmə pendir* mənasında işlənir [10, s.4]. Fars mənşəli yemək və içki adlarına *şorba, pilav, boza, lavaş, keşkek*; ərəb mənşəli adlara isə *şerbet, baqla, loqma, araha, kebap, helva, raqı, kahve* kimi sözləri nümunə göstərmək mümkündür. Karaim dilinin Krım dialekti ərəb və fars alınmalarının üstünlüyü baxımından digər iki dialektə nəzərən daha çox seçilir. Bu amil Krımda yaşayan karaimlər və müsəlman türklər arasında uzunmüddətli sosial-mədəni əlaqələrin mövcudluğu ilə əlaqələndirilir [13, s. 160].

Kulinariya leksikasında milli və dini-məişət xüsusiyyəti daşıyan vahidlər də diqqəti cəlb edir. Məsələn, *aynalıq* sözünün *"Şabat üçün cümə günü bişirilən yemək"* mənasında işlənməsi qida adının müəyyən məişət və dini ənənə ilə bağlı olduğunu göstərir. *Aynalıq* sözünün farsa *cümə* mənasına gələn *ayne* sözü ilə bağlı olduğu ehtimal edilir.

Sintaktik yolla düzələn yemək adlarından *qabaq dolması, qaşıq böregi, ballı baqlava, sirkeli paça,* kimi yemək adlarının hər iki tərəfi türk mənşəlidir. Belə yemək adları arasında bir tərəfi türk digər tərəfi ərəb və ya fars mənşəli olanlar da var. Məsələn, *baqlaşı, ballı loqma, şekerli börek, qoz sarması, qaplı pilav, cevizli börek* və s.

Nəticə: Aparılan təhlillər göstərir ki, ibrani qrafikalı karaim mətnlərində yemək və içki adları dilin leksik tərkibinin mühüm hissəsini təşkil edir. Bu leksik vahidlər karaim türklərinin gündəlik məişəti, onların tarixi-mədəni əlaqələri haqqında da müəyyən təsəvvür yaradır. Tədqiqata cəlb olunan materialların leksik-semantik təhlili nəticəsində kulinariya leksikasının müxtəlif məna qruplarında birləşdiyi və semantik baxımdan rəngarəng xüsusiyyətlərə malik olduğu müəyyən olunmuşdur. Mətnlərdə morfoloji və sintaktik üsulla yaranan yemək adlarına rast gəlinir. Bununla yanaşı, karaim dilinin tarixi inkişafı və müxtəlif dillərlə təması nəticəsində formalaşmış alınma leksik vahidlər də kulinariya leksikasının tərkibində özünü göstərir. Beləliklə, ibrani qrafikalı mətnlərdə rast gəlinən yemək və içki adlarının araşdırılması karaim dilinin söz yaradıcılığı və leksik-semantik xüsusiyyətlərini, eləcə də xalqın maddi-mədəni irsinin dilə yansımasını müəyyənləşdirməyə imkan verir.

Ədəbiyyat siyahısı

1. Aqtay G. Eliyahu Ben Yosef Kılcı`nın mecuması (Krım Karay ve Türk edebiyyatı mecmuası). Ankara, TDK, 2021, 886 s.
2. Aqtay G., Jankowski H. Kırım Karaycası Türkçe Sözlük (Çev. Tülay Çulha). İstanbul, 2020, 507 s.
3. Azərbaycan dilinin dialektoloji lüğəti/ redaktor: A. Axundov, Q.Kazımov, S. Behbudov. Bakı: Şərq-Qərb, 2007. 568 s.
4. Baskakow N. A., Szapszał S. M., Zajączkowski A. Słownik Karaimsko-Rosyjsko-Polski, Moskwa, 1974, 687 s.
5. Clauson, G. An Etymological Dictionary of Pre-Thirteenth Century Turkish. Oxford: Oxford University Press, 1972, 987 p.
6. Çulha T. Kırım Karaycasının Katık Mecuması. Ankara: Türk Dil Kurumu, 2015. 600 s.

7. Ercilasun, A. B. Karşılaştırmalı Türk Lehçeleri Sözlüğü I/ A.B.Ercilasun. – Ankara: Kültür Bakanlığı Yayınları. – 1991. – 1183 s.
8. Ercilasun, A. B. -maç/-meç eki üzerine// İstanbul: Türk Dili ve Edebiyatı Dergisi, 1973. cilt: 21. s. 83-88.
9. Ergin M. Ergin Dede Korkut kitabı I/ M. Ergin. Ankara: Türk tarihi kurumu basım evi, 1958. 251 s.
10. Fındık, A. Ş. Kıpçakçada Süt Ve Süt Ürünleri ile ilgili sözvarlığı. The Journal Of Turkic Language And Literature Surveys (Tullis), 2021, 6(1), s. 1-17.
11. Hüseynova, M. Azərbaycan dilinin yemək və içki adlarının tarixi-etimoloji lüğəti. Bakı: ADPU nəşriyyatı, 2018, 196 s.
12. Kaşğarlı, M. Divanü-luğat- it -turk./ çev. B. Atalay: [4 cilddə]. M.Kaşğarlı. – Ankara: Türk Dil Kurumu Yayınları, c. 1, 1985, 530 s.
13. Öztürk A. Karaycadakı Alıntı Kelimeler. Gazi Türkiyat (16), 2015, s.143-164.
14. Radloff W. Proben der Volkslitteratur der nördlichen türkischen Stämme/ Kuzey türk boylarının halk edebiyyatından örnekler. VII Theil/bölüm. Die Mundarten der Krym/ Kırım ağızları. İstanbul, 2010, 916 s.

Khayal Asgarli

Culinary lexicon in Karaite texts with Hebrew script: lexico-semantic and ethnolinguistic analysis

Summary

The article examines the names of food and food products used in Karaite texts with Hebrew script from lexical-semantic and ethnolinguistic aspects. Studying culinary lexicon not only as nominative units, but also as linguistic indicators of a certain historical-cultural environment provides a broader perspective for their study. The historical development of the Karaim language and its contacts with various languages are reflected in its lexical composition, especially in word groups related to material culture. In this regard, food names provide important linguistic material about the Karaites' daily life, national cuisine, economic activities, and cultural ties.

The study analyzes the structural-semantic properties, origins, and lexical-semantic relationships of selected food and dish names from Karaite texts written in Hebrew letters. At the same time, along with words of Turkic origin, the characteristics of borrowed lexical units that entered the Karaim language as a result of language contacts are determined. The results of the study show that Karaite texts in Hebrew script are an important source not only in terms of linguistic history, but also in terms of studying the material and spiritual cultural heritage of the Karaites.

Keywords: *Karaite language, Hebrew script, Turkic languages, culinary vocabulary, food terms*

Хаял Асгарли

Кулинарная лексика в караимских текстах, выполненных еврейским письмом: лексико-семантический и этнолингвистический анализ

Резюме

В статье рассматриваются названия пищи и пищевых продуктов, встречающиеся в караимских текстах, написанных с использованием еврейского алфавита, с лексико-семантической и этнолингвистической точек зрения. Изучение кулинарной лексики не только как номинативных единиц, но и как языковых индикаторов определенной историко-

культурной среды открывает более широкую перспективу для ее исследования. Историческое развитие караимского языка и его контакты с различными языками нашли отражение в его лексическом составе, особенно в группах слов, относящихся к материальной культуре. В этом отношении названия блюд служат важным лингвистическим материалом, позволяющим судить о повседневной жизни, национальной кухне, хозяйственной деятельности и культурных связях караимов.

В исследовании анализируются структурно-семантические свойства, происхождение и лексико-семантические связи избранных названий продуктов и блюд из караимских текстов, написанных с использованием еврейского алфавита. Наряду со словами тюркского происхождения определяются также характеристики заимствованных лексических единиц, вошедших в караимский язык в результате языковых контактов. Результаты исследования показывают, что караимские тексты, написанные с использованием еврейского алфавита, являются важным источником не только для изучения истории языка, но и для исследования материального и духовного культурного наследия караимов.

Ключевые слова: *караимский язык, еврейское письмо, тюркские языки, кулинарная лексика, названия продуктов и блюд.*

Çapa tövsiyə edən: AMEA Nəsimi adına Dilçilik İnstitutu

Rəyçilər: ***fil.ü.f.d., dos. Nəzakət Qaziyeva***
fil.e.d., dos. Elçin İbrahimov